Qazıxıstanın xalq şairi **Oljas Süleymenov** qazax xalqı adından tədbir iştirakçılarını təbrik edərək dedi: "Bir az öncə Yazıçılar Birliyinin Natəvan klubunda "Sərhədsiz söz" Beynəlxalq forumu ilə birgə keçirilən tədbirdə iştirak etdim. Dəyirmi masa arxasında ədəbi həyatın müxtəlif problemləri ilə bağlı fikir mübadiləsi aparıldı. Ümumi fikir beləydi ki, ədəbiyyata biganə qalmaq olmaz. Orada çıxış edən türkiyəli yazar haqlı olaraq ədəbi ilişgilərdə tərcümə işinin önəmli olduğunu önə çəkdi və dedi ki, biz ədəbiyyatı oxuya-oxuya özümüzü dərk edirik. Bu sözlər çox incə duyğularla deyildi. Mən sovetlər dönəmində də Azərbaycanda olmuşam. O zamanın özündə belə dahi dövlət başçısı, rəhmətlik Heydər Əliyev Azərbaycan ədəbiyyatının inkişafına xüsusi diqqət yetirirdi. Hakimiyyətə ikinci dəfə qayıdışı zamanı da o, öz qayğısını bu sahəyə əsirgəmədi. Bu ənənə Azərbaycanda yenə də davam edir. Mən MDB dövlətlərində tez-tez oluram. Müqayisə üçün deyim ki, ədəbiyyatın inkişafına Azərbaycanda daha çox diqqət yetirilir.



Yazıçı həyatı çətin, ancaq bütöv, şərəfli həyatdı. Bilirəm ki, yazıçı həyatının aurasını qoruyan Azərbaycan Yazıçılar Birliyinin qorunub-saxlanmasında Anar böyük nümunə göstərdi, çətinliklərə dözdü. Bütün sovetlər məkanına daxil olan Yazıçılar İttifaqları dağıldı, ancaq Azərbaycan yazıçıları birgə evləri olan bu qurumu qorudu. Bu barədə mənim çoxdankı dostum Elçin də burada danışdı. Demək xoşdu ki, o, həm dövlət xadimi, həm də yazıçı kimi özünü doğruldur.

Burada sənədli filmə baxdıq. Baxıb gördüm ki, vaxtilə ünsiyyətdə olduğum şair və yazıçılar qocalsa da, ruhən cavan qalıblar. Ümid edirəm ki, bu, həmişə belə olacaq".

Avrasya Yazarlar Birliyinin başqanı **Yaqub Deliöməroğlu** çıxış edərək vurğuladı ki, dünyanın çox az ölkəsində Yazıçılar Birliyi Azərbaycanda olduğu kimi inkişaf edibdir. Azərbaycan Yazıçılar Birliyi bu keçid illərində dilin yaşadılmasında, mənəvi dəyərlərin qorunmasında böyük işlər görüb, öz missiyasını yenə də uğurla davam etdirir. Birliyin ədəbi dərgilərinin və qəzetinin ardıcıl nəşr olunması çox önəmlidir. Şübhəsiz ki, bu işlərin həyata keçirilməsində Anarın böyük xidmətləri var. Anar müəllim türk dünyasının görkəmli ədəbi simalarından biridir. Avrasiya Yazarlar Birliyi yaratmaq ideyasını gerçəkləşdirmək barəsində düşündüyüm bir vaxtda belə bir qurumun reallaşacağı zamanında Azərbaycan Yazıçılar Birliyinin bizim yanımızda ola biləcəyini soruşanda o, dərin səmimiyyətlə "biz həmişə sizin yanınızda olacağıq" dedi və sonra da sözünə əməl etdi. Şadam ki, Azərbaycanda mənim də kitablarım nəşr olunub. Eyni zamanda bizim "Qardaş qələmlər" toplusunda çağdaş Azərbaycan şair və yazıçıları müntəzəm çap olunur. "Bəngü" yayın evimiz tərəfindən on kitab, o cümlədən ustad yazıçı Cəlil Məmmədquluzadənin hekayələr kitabı nəşr olunub. Yaxın günlərdə Elçinin yeni kitabını nəşr etməyi planlaşdırmışıq.



Görkəmli türk şairi Nazim Hikmətin ilk kitabı Türkiyədən əvvəl Azəbaycanda işıq üzü görmüşdü. Taleyin qəribə və qanunauyğun işidir ki, Anarın Nazim Hikmətə həsr etdiyi kitab Azərbaycandan öncə Türkiyədə çap edildi. Anar müəllim bir şerində "Yaşamışam, yaşayıram, yaşayacam" deyir. Mən də bu gün eyni sözün ruhundaca inamla "Azərbaycan Yazıçılar Birliyi yaşayıb, yaşayır və yaşayacaq" deyirəm.

"Drujba narodov" jurnalının baş redaktoru **Aleksandr Ebonaidze** mərasimdə çıxış edərək dedi: "Mən burada Elçinin, Anarın və Oljas Süleymenovun çıxışlarını dinlədim və bir daha dərk etdim ki, Azərbaycanda yazıçılara hörmət yüksək səviyyədədir. Burada yazıçıya yetərli münasibət və qayğı var. Rəhbərlik etdiyim jurnalın səhifələrində hələ sovetlər dönəmində Səməd Vurğunun əsərləri çap olunub, eyni zamanda Anarın, Elçinin, Çingiz Hüseynovun və başqalarının. Bu ənənə yenə də davam edir. Təsadüfi deyil ki, jurnalın bütöv bir sayı ötən il Azərbaycan yazıçı və şairlərinin ixtiyarına verilmişdi. Azərbaycan ədəbiyyatı çox maraqlıdı. Biz



***(Ardı 4-cü səh.)***

